# Elmi kütləvi, mədəni maarifçilik proqramlarında Cənubi Azərbaycan mövzusu...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

**Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra yeni tarixə, həyata qədəm qoyub. Cəbhədə döyüşlər bitsə də, informasiya müharibəsində mübarizə sonadək davam edəcək. Bunun üçün cəmiyyətimiz daha da savadlanmalı və hərtərəfli informasiya ilə əhatələnməlidir.**



Əlbəttə ki, bütün bunlara nail olmaq üçün isə elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının inkişaf etdirilməsinə, yenilərinin hazırlanmasına böyük ehtiyac var. Düzdür, Vətən müharibəsindən ötən iki il ərzində xeyli toplular nəşr olunub. Bu istiqamətdə xeyli tədbirlər keçirilib, bundan sonra da davam edəcək. Təbii ki, müharibənin nəticələri rəsmiləşdirildikdən və sülh müqaviləsi bağlandıqdan sonra bu işlər sistemli şəkildə davam etdiriləcəyinə şübhə yoxdur. Artıq müharibə ilə bağlı mövzular dərsliklərə salınıb ki, bu da gənclərimizin yeni tarixini öyrənməsində mühüm rol oynayır.

**"Nə şahçıyam, nə şeyxçi, millətçiyəm, millətçi"**

Müharibədən sonra biz həm də qonşu İranın bizim uğurlarımızı həzm edə bilmədiyini görürük. Onlar bizə qarşı həm də ideoloji müstəvidə mübarizə aparırlar. Bu baxımdan da, adekvat addımlar atmağımız çox zəruridir. İran bu cür hədələri zaman-zaman edib. 2001-ci ildə İran qırıcıları Azərbaycanın hava sərhədlərini pozmuşdu. O zaman "Türk şahinləri" Azərbaycan dəstəyə gəldi. 44 günlük savaşda da İranın xəyanəti təkrar olundu. Erməni ordusu silahını atıb Azərbaycan ordusunun qarşısından qaçırdı.

Oktyabrın 17-də İran ordusu Azərbaycan hərbi birliklərinin qarşısına çıxdı.

İran iddia edirdi ki, guya SES-i qoruyurlar. Diplomatik təzyiqlərdən sonra İran geri çəkildi. 2021-də oktyabrda ayında yenə sərhəddə hərbi təlim keçirdilər. Bu ilin oktyabrın 17-də SEPAH ordusu Araz kənarında təlimlərə başladı.

Diktatura rejiminin qanlı repressiyalarına baxmayaraq, İrandakı Azərbaycan xalqı öz tələblərini ortaya qoyur. Etirazlar davam edir. Təbrizdə, Zənganda, Ərdəbildə baş tutan aksiyalarda səslənən şüarlara diqqət etmək lazımdır. Əsas şüarlar "Azadlıq, ədalət, milli hökumət", "Azərbaycan türkləri, çəkəmməz bu zilləti", "Nə şahçıyam, nə şeyxçi, millətçiyəm, millətçi", "Biz ölməyə hazırıq, Babəkin sərbazıyıq"dır. Bu, onu göstərir ki, Azərbaycan türkləri öz hökumətinin qurulmasını istəyir. Bu, artıq millətin iradəsidir.

**İnkişaf, xüsusilə də təhsil proqramları ölkənin güclənməsi baxımından ən vacib faktorlardandır**

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə çıxışı zamanı bildirib ki, türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir:

"Hesab edirəm ki, TDT üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daim əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatıb. Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə, məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır. Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur".

Bəli, hazırda bizim 40 milyona yaxın soydaşımız İran adlanan dövlətdə öz hüquqlarından məhrum edilib. Onlarım həm də bizim ideoloji və informasiya dəstəyimizə ehtiyacları var.

Hazırkı dönəmdə bütün sahələri əhatə edən inkişaf proqramları daim dövlətimizin diqqət mərkəzindədir və xüsusilə də elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanmasına xüsusi diqqət ayrılıb. Çünki inkişaf, xüsusilə də təhsil proqramları ölkənin güclənməsi baxımından ən vacib faktorlardandır. Təsadüfi deyil ki, hər bir ölkənin inkişafı onun elm, təhsil və mədəniyyətinin səviyyəsi ilə ölçülür və məhz buna görə də Azərbaycanda bu istiqamətdə mühüm işlər görülür, amma buna baxmayaraq, elmi-kütləvi, mədəni-maarif və təhsil proqramlarının yenilənməsinə hər zaman ciddi ehtiyac var. Biz İilərdir İrandakı azərbaycanlıların hüquqlarının tapdalandığına seyrçi qala bilmərik. Cənab Prezident Səmərqənddə Türk Dövlətlər, Təşkilatının Zivə Görüşündə vurğuladı ki, Azərbaycan hər zaman öz soydaşlarının yanında yer alacaq.

**Cənubi Azərbaycanla bağlı proqramlar hazırlanmalı və əhaliyə təqdim edilməlidir**

Sözsüz ki, ölkəmizdə internet şəbəkəsinin mövcudluğu, sürətliliyi elmi-kütləvi, mədəni-maarif, təhsil proqamları və onların inkişaf etdirilməsi, təşviqi üçün geniş spektrdə imkanlar deməkdir. Daha dəqiq desək, ölkəmizin mövcud imkanları bu proqramların daha geniş, daha əhatəli yayılması üçün əsaslı zəmin yaradır. Şübhə yoxdur ki, həmin proqramların daha da geniş şəkldə canlandırılmasında internet resurslarının rolu danılmazdır. Əlbəttə ki, elmin, mədəniyyətin təbliğinə televiziyalar da xüsusi yer ayırmalıdırlar və şou proqramlarım yerinə maarifçilik əhəmiyyətli kütləvi xarakter daşıyan Cənubi Azərbaycanla bağlı proqramlar hazırlanmalı və əhaliyə təqdim etməlidir. Bu, bizə qarşı açıq düşmənçilik aparan İrana ən tutarlı cavab və eyni zamanda 40 milyonluq soydaşlarımızın hüquqlarının qorunması baxımından əhəmiyyətli olar. Buna görə də, Cənubi Azərbaycan mövzusuna bütün elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanmasında geniş yer verilməlidir.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**